*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2019, № 1*
*Səhifə: 110-122* *ISSN: 2663-2926*

**UOT:** 821.512.162.09 Maral Yaqubova*

*Bu məqalə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafi Fondunun maliyyə dəstəyi ilə hazırlanmışdır.*
***Grant EIF/GAM-2-2013-2(8)-25/23/5***

# KVANT FİZİKASI VƏ ƏDƏBİYYAT

**Açar sözlər:** kvant fizikası, bədii ədəbiyyat, gerçəklik, qeyri-müəyyənlik, müşahidə, mətn
**Key words:** quantum physics, literature, reality, indeterminacy, observation, text
**Ключевые слова:** квантовая физика, художественная литература, реальность, неопределенность, наблюдение, текст

Müasir fizikanın elmi-nəzəri əsasını təşkil edən kvant fizikası ilə bədii ədəbiyyatın birlikdə tədqiqat mövzusu olması qəribə səslənə bilər. Fizikanın konkretliyi və dəqiqliyi ilə ədəbiyyatın üslub rəngarəngliyi, poetik məna çoxluğu arasında bir bağ qurmaq ilk baxışda mümkünsüz görünür. Toxunduğumuz mövzunun olduqca geniş və ümumi olduğunu, kifayət qədər zaman və coğrafiyanı əhatə etdiyini nəzərə alaraq qeyd etmək istərdik ki, biz bu məqalə çərçivəsində insanlığın bu iki mühüm dünyagörüşü istiqamətlərinin, idraki təcrübəsinin müqayisə oluna və əlaqələndirilə biləcək xüsusiyyətlərini ən ümumi cizgiləri ilə şərh etməyə çalışacağıq. Adətən fizika ilə ədəbiyyat arasındakı bağlantını yalnız fiziki hadisələrin ədəbiyyatda bədii mövzu kimi işlənməsi şəklində araşdırmaqla kifayətlənirlər. Həm fizika, həm bədii ədəbiyyat ayrı-ayrılıqda sitemli struktura malikdirlər. Eyni zamanda "oxuna biləcək mətn" kimliyinə sahibdirlər. Bu məruzədə məqsəd əsasən, bir-birindən kəskin fərqlənən bu ikilinin mövcud oxşarlıqlarını və kəsişmə nöqtələrini müəyyənləşdirməkdən ibarətdir. Kvant fizikası və bədii ədəbiyyat arasında qarşılıqlı münasibətlərdə bir-birini inkar və təsdiq məqamlarını təsbit etməkdir. Nəticə etibarilə, həm fizika, həm ədəbiyyat sözün ən geniş mənasında gerçəkliyi öyrənir. İnsanın ən böyük mücadilələrindən biri gerçəkliyi öyrənmək, onun mahiyyətini və ölçülərini anlamaq cəhdləridir. Gerçəklik haqqında elmin dəqiq və əsaslandırılmış müddəaları, fəlsəfənin qarışıq və mürəkkəb konsepsiyalarının ortaya atdığı mülahizə və rəylərlə yanaşı, onu öyrənmənin, dərk etmənin və qavramanın başqa bir aspekti bədii incəsənətlə reallaşır. İncəsənət, o cümlədən ədəbiyyat həm də gerçəkliyi dərk etməyə can atmanın ən ilkin formasıdır. Fizika və ədəbiyyat arasındakı ilk gözə çarpan yaxınlıq obyektlə bağlıdır. Həm ədəbiyyat, həm fizika gerçək dünyanı müşahidələrlə öyrənməklə, əks etdirməklə, təhlil etməklə məşğuldur. Lakin bu öyrənmə prosesinin təzahür formaları fərqlənir. Fizika elmi idrak formasının, ədəbiyyat isə bədii idrak formasının nəticəsidir. Fizika təbiətin ən ümumi qanunlarını, bizi əhatə edən maddi aləmin quruluşunu və xassələrini öyrənir. Ən sadə obyektlərdən (elementar zərrəciklərdən) tutmuş milyardlarla qalaktikanı özündə birləşdirən və hələ də genişlənməkdə olan Kainata qədər hər şeyi daim hərəkətdə, bir-birləri ilə qarşılıqlı təsirdə və məlumat mübadiləsində olduğunu öyrənən fizikanın öyrənmə metodları müşahidə, eksperiment və nəzəriyyədir. Ədəbiyyat isə tamam fərqli yanaşmaları ilə seçilən xüsusi idrak formasıdır. Lakin bu iki fərqli konseptual dünyayabaxış forması arasında bənzər məqamlar da vardır.

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: yaqubova.maral@mail.ru

**Klassik və müasir fizika.**

Fizika elmini adətən klassik və modern fizikaya ayırırlar. Kvant fizikası klassik və müasir fizika arasında sərhəd rolunu oynayır. Bir çağ bitir, yeni bir çağ başlayır və bu başlanğıc özlüyündə inkarları da labüd edir. Kvant fizikası və bədii ədəbiyyat arasında ilk başda mümkünsüz görsənən yaxınlaşmanın və adekvat məqamların mahiyyətini anlamaq üçün əvvəlcə Kvant fizikasının nə olduğunu bilmək lazımdır. Təbii ki, məruzədə kvant fizikası və bədii ədəbiyyatın müqayisəsininin şərhində əbiyyatşünas mövqeyi sərgilənəcək. Lakin, kvant fizikasının ümumi fizika elmi müstəvisində ehtiva etdiyi mahiyyətini anlamadan istənilən müqayisə naqis qalar. Kvant nəzəriyyəsinə qədər fizikada nə var idi? Kvant fizikası nəyi dəyişdi? Bu elmi-nəzəri sistemdən sonra fizikada nələr baş verdi? Bu suallara qısa və yığcam şəkildə cavab verməklə, bədii ədəbiyyat ilə kvant fizikası arasında müqayisə paradiqmalarını da müəyyənləşdirməyə çalışacağıq.Fizikanın bir elm sahəsi kimi formalaşması tarixinə nəzər salmaq bu baxımından maraqlıdır. E.ə III minillikdə, Mesapotamiyada, Şumer və Akkad sivilizasiyalarında su dəyirmanlarının tikilməsi, heykəltəraşlıq, piramidaların tikilməsi, zaman, məsafə və suratlə bağlı texniki ölçmə vərdişlərinin formalaşması, qədim Misir mühəndisliyi və s. praktik fiziki bilgilərin formalaşmasından xəbər verir. Lakin müəyyən ehtiyacların ödənilməsini təmin edən bu vərdişlərin formalaşmasını şərtləndirən qanunauyğunluqların və onların ortaq prinsiplərini öyrənmək cəhdi e.ə VI və V əsrlərdə Qədim Yunanıstanda ortaya çıxdı. Dünyanın xaosdan necə yaranması, çoxluğun və müxtəlifliyin səbəbləri, hərəkət və dəyişmələrin hesablanması sualları ətrafında sistemli fizikanın ilk təməlləri qoyulurdu. Miletli Fales (E.ə. 640/624 – 548/545 ) fəlsəfə üçün çox böyük əhəmiyyəti olan bir ideya irəli sürdü. O, hər şeyin sudan yarandığını dedi. Fales bu fikirlə ilkin substansiya anlamını və ideyasını yaratdı. Bununla bütün hər şeyi əhatə edən vahid baxışla dünyanın izah edilməsinə maraq oyatdı. Antik çağ filosoflarından Efesli Heraklitə (e.ə 540 - 480) görə dünyanı heç kəs yaratmayıb, o əbədidir, hər zaman hərəkətdədir və varlığın əsasında dayanan ilk maddə oddur. Heraklit "kosmos" terminini yazılı şəkildə işlətmiş ilk yunan filosofu olmuşdur. Siciliyalı Empedokl (e.ə 490-430) dörd elementi dəyişməz ilkin başlanğıc hesab edir: od, hava, su və torpaq. Anaksaqor (e.ə. 500-428) iddia edirdi ki, dünya təbii yolla əmələ gəlib, həmişə mövcud olub və ona məxsus olan qanunlarla inkişaf edir. Əşyaların müxtəlifliyini onların meydana gəlib məhv olmasını Anaksaqor onların birinci ünsürlərinin "şeylərin toxumlarının" birləşmələrinə və bölünmələrə gətirirdi. Demokrit (e.ə. 460-370) bölünməyən zərrəcikləri ilk dəfə atom adlandırdı. Materialist atomizmin banisinin fikrincə, Kainatın başlanğıcı- atomlar və boşluqdur, yerdə qalanlar isə fikirlərdə mövcuddur. Dünyalar sonsuz qədər çoxdur, onlar zamana görə başlanğıca və sona malikdirlər. Heç nə yoxdan əmələ gəlmir və yox olmur. Atomlar da ölçüləri və çoxluğu etibarı ilə saysız-hesabsız olub, kainatın burulğanlarında fırlanaraq hərəkət edir, beləliklə bütün mürəkkəb şeylər: od, su, hava, torpaq yaranır. Sonuncular bəzi atomların birləşməsinin nəticəsidir. Atomlar möhkəmlikləri nəticəsində dəyişilmir. Atomlar dəyişilməz və əbədidir, bölünməz və nüfuz edilməzdir, daim hərəkətdədir. Fizika sahəsində Aristotelin görüşləri xüsusi çəkiyə malikdir. Aristotel (e.ə. 384 – e.ə. 322) maddi aləmin obyektiv varlığını qəbul edir və hisslərə, anlayışlara və təsəvvürlərə real şeylərin törəmələri kimi baxırdı. Aristotelin materializm və idealizm arasındakı tərəddüdləri onun dialektika ilə metafizika arasındakı tərəddüdləri ilə müşahidə edilirdi. O, təbiətdə və cəmiyyətdə hərəkəti qəbul edir, hərəkətin müxtəlif növlərinin (meydana gəlmə, məhv olunma, inkişafı, azalma, keyfiyyətcə dəyişmə və fəzada dəyişmə) mövcud olmasına işarə edirdi. Ziddiyyətlərin qarşılıqlı əlaqəsini, keyfiyyətli dəyişikliklərin kəmiyyətlərdən asılılığını görür, mümkünlüyün həqiqətə çevrilməsini tədqiq edirdi. Aristotelə görə İlahi varlıq maddədən kənarda qalır və özü hərəkətsiz qalaraq bütün dünyanı faydalı hərəkətə gətirir. Ümumi ilə təkin arasında olan nisbəti məsələsinə isə Aristotel toxunmurdu. Kosmologiya sahəsində Aristotel geosentrik nəzəriyyənin tərəfdarı idi. Onun kosmoloji fikirlərini sonradan Ptolomey inkişaf etdirmişdir. Sonralar bu nəzəriyyə Xristian kilsəsi tərəfindən ehkamlaşdırılmışdır. Aristotelin fizikaya dair fikir və mülahizələri bütöv orta əsrləri öz təsir dairəsində saxlaya bildi. Onu da qeyd etmək lazımdır ki, fiziki elmi biliklərin fəlsəfə və dinin təsirlərindən uzaqlaşıb müstəqil

tədqiqat sahəsinə çevrilməsi üçün təxminən iki min ilə yaxın zaman keçmişdir. Avropada intibah və Reformasiya hərəkəti nəticəsində, modern çağın başlanması ilə, elm adamları hadisələrin səbəbindən ziyadə, həmin hadisələrin necə baş verməsi üzərində düşünməyə başladı. Bəşəriyyət yaşadığı dünya haqqında bilik və görüşlərini Ptolemeyin dünya mərkəzli görüşündən, Qaliley, Kepler və Kopernikin günəş mərkəzli astrofiziki dünya baxış sisteminə gətirə bilmişdir. XVI əsrdə dinin müqavimətinə baxmayaraq, geosentrik sistem təlimi dünyanın heliosentrik sistemi təlim ilə əvəz olunmuşdur. Kosmoloji dünyagörüşü dəyişən insanın dünyayabaxış və onu dərk sistemləri də dəyişmiş olur. Və XVII əsrdə fizikanın tarixinə Nyuton (1642-1727) "Natural fəlsəfənin riyazi başlanğıcı" (1687) adlı əsəri ilə öz imzasını atdı. O, heliosentrizmin inkişafinda böyük rol oynamış, ilk dəfə elmə Yerin cazibə qüvvəsi anlayışını daxil etmişdir. Nyuton dünya fizika tarixində yeni bir başlanğıc idi. XVIII və XIX əsrlər elmi tədqiqatların qızıl dövrü kimi şərh olunur, dəyişən sosial-iqtisadi strukturun da təsiri ilə təbiət haqqında elmlərin müstəqil nəzəri sistemləri formalaşmağa başladı. Faradeyin elektromaqnit induksiya hadisəsinin kəşfi (1831), Maksvellin elektromaqnit sahə nəzəriyyəsinin yaranması (1861), elektronun Tomson tərəfindən kəşfi (1897), Bekkeler ve Küri tərəfindən radioaktivliyin kəşfi (1898), Helmhols, Coul, Tomson, Karno, Klauzius, Nernst və başqaları tərəfindən termodinamikanın və statistik fizikanın əsaslarının qoyulması (1847), entropiya anlayışı (Klauzius, 1865) və s. fizikanın inkişafında mühüm addımlar olmaqla yanaşı, XX əsrin əvvəllərində baş verəcək inkarlar üçün zəmin hazırlayırdı. XX əsrin əvvəllərində fizikanın həmin dövrə qədər kainat haqqında formalaşmış düşüncəsini dəyişən iki kəşf baş verdi: Kvant fizikası və nisbilik nəzəriyyəsi. 1905-ci ildə Albert Eynşteyn işığın kvantalara, yəni enerji porsiyalarına sahib olduğu iddiasını ortaya atdı. Bu enerji porsiyalarına foton adı verilirdi. Kvant hadisəsində işıq həm maddə, həm də dalğa xüsusiyyəti göstərirdi. Foton deyilən maddəyə kosmosda dalğa yoldaşlıq edirdi. Yəni işıq kosmosda dalğa kimi, qarşısına maneə çıxdıqda isə aktiv zərrəcik kimi davranırdı. Başqa sözlə işıq, qarşısına maneə çıxana qədər enerji şəklinə bürünür, maneə ilə qarşılaşdığında isə sanki maddi varlığı varmış kimi qum dənələrinə oxşar şəkildə zərrəciklər formasını alırdı. Bu nəzəriyyə Plankdan sonra Albert Eynşteyn, Nils Bor, Louis De Broglie, Paul Adrian Maurica Dirac və Wolfgang Pauli kimi elm adamları tərəfindən inkişaf etdirildi. XX əsrin başlanğıcında işığın elektromaqnit (dalğa) nəzəriyyəsi ilə yanaşı olaraq, Nyutonun təklif etdiyi korpuskulyar nəzəriyyədən keyfiyyətcə tamamilə fərqli olan yeni korpuskulyar (kvant) nəzəriyyə yaranmış oldu. Qeyri-adi bir vəziyyət yarandı: işığın interferensiyası və difraksiyası hadisələrini dalğa nəzəriyyəsinə əsasən, şüalanma və udulma hadisələrini isə işığı kvantlar seli (korpuskullar) hesab etməklə izah etmək mümkündür. Deməli, işıq ikili xassəyə, yəni dalğa xassəsinə və korpuskulyar xassəyə malikdir [1, s.10]. Elm adamları, artıq maddənin cansız, kor və anlaşılmaz zərrəciklər olduğuna inanmırdılar. maddənin özündə maddi olmayan bir şeylər vardı. Elektron, proton kimi zərrəciklər də özlərini dalğa kimi aparırdılar. Yəni materializmin mütləq maddə olaraq təyin etdiyi atomun içində materialistlərin klassik inancının əksinə maddə deyil, əslində var olmayan enerji dalğaları vardı. Atomun içindəki bu kiçik zərrələr eynilə işıq kimi istədikləri zaman dalğa kimi davranır, istədikləri zaman da zərrəcik xüsusiyyəti göstərirdilər. Yəni materialist şərhə görə atomun içində "mütləq şəkildə var olan maddə", materialistlərin proqnozlarının əksinə bəzən görünən olur, bəzən də yox olurdu. Bu məqamlar idealistlərin kvant fizikasında antimaterializm axtarmasına səbəb oldu, gerçək dünya zənn etdiyimiz görüntülərin kölgə varlıq olduğunu, maddənin fizikadan tamamilə uzaqlaşdığını və metafizikaya yönəldiyini kvant fizikası ilə sübut etmək tendensiyası formalaşdı. XX əsrdə kvant fizikası və din bağlamında onlarla əsər yazıldı, Tanrının isbatı məsləsində kvant fizikasını elm və din fəlsəfəsinin ortaq məxrəcə gəldiyi məqam kimi qəbul edən tədqiqatlar ortaya çıxdı. Digər tərəfdən fizikanın ümumi tarixində yeni bir mərhələ olan kvant fizikasının anti-materialist şərhi elmi nəzəri təfəkkürdə gülünc və xəyalpərəst yozum kimi qəbul edildi. Klassik fizikanın tədqiq obyektindən kənarda qalan qeyri-maddi aləm, yəni fiziki formada təzahür etməyən, fiziki olanın ötəsində dayanan, metafiziki səciyyə daşıyan məsələlərə toxunan kvant nəzəriyyəsinin öz prinsipləri müəyyənləşdi. Klassik fizika makrokosmosu öyrənməklə qənaətlənirdi, kvant fizikası

isə daha bizi əhatə edən aləmlə yanaşı, mikroaləmi atom və subatom zərrəciklərin mikroskopik dünyasını da öyrənməyə çalışdı. Kvant nəzəriyyəsinə görə, mikro kainat dinamikdir, düşünüldüyü kimi sürəkli deyil, kəsintilidir, dalğa funksiyasına malikdir, qeyri-müəyyənlik prinsipi var, ikili xarakterə və tunel effektinə sahibdir. Makrokosmosla müəyyən əlaqələri vardır. Kvant fizikasının əsas prinsip və meyarları bir çox nəzəriyyəçilərin diqqətini şərq fəlsəfəsinə, xüsusilə təsəvvüfə yönəltdi. Ortaya qəribə bir paradoks çıxdı. Qərb düşüncəsinin XX əsrdə əldə etdiyi elmi qənaətlər orta əsrləq Şərq təfəkkürünün ana xəttini təşkil edirdi. Adətən dünya elm tarixinə aid yazılmış kitabların böyük əksəriyyəti Qədim Misir, Mesopotomiya və Ellin sivilizasiyalarına diqqət yetirir, Bizans mədəniyyətini və xristian orta əslərinin üzərində dayandıqdan sonra yeni dövrə müraciət edirlər. Orta əsrlərin zəngin islam elm və mədəniyyəti bir qədər kənarda qalmış olur. Lakin müasir dövrdə islam alimlərinin fizika elmi sahəsindəki xidmətlərini araşdıran alimlərin əldə etdiyi qənaətlər olduqca maraqlıdır. Siqrid Hunke "Avropanın üzərinə doğan İslam Günəşi" adlı əsərində təəssüf hissi ilə bildirir ki, islam alimlərinin müxtəlif elm sahələrinə aid dünyanı qabaqlayan görüşlərinin aydınlığa çıxmamasına xristianlıq inancının ehtirasları səbəb olmuşdu. Orta əsrlərdə bütün elmlər fəlsəfə ilə iç-içə öyrənildiyindən filosof kimi tanıdığımız şəxsiyyətlər həm də digər elm sahələrində böyük tədqiqatçı alimlər hesab olunur. XX əsrdə aparılmış tədiqatlar nəticəsində dünya elm tarixində Avropa elminin qənaətləri hesab olunan bir sıra kəşflərin islam alimlərinə məxsus olduğu ortaya çıxmışdı. Kufədə doğulmuş, fəlsəfə, fizika, tibb və musiqi sahələrində 260-a yaxın əsər yazmış Əl-Kindi nisbilik nəzəriyyəsini ilk dəfə fiziki mənada tədiq edən alim hesab olunur. O, ilk dəfə düşüncə tarixində zaman, məkan və hərəkətin nisbi olduğunu söyləmişdir. Əl-Kindi fizikasına görə zaman, cisim və hərəkətdən ayrı olaraq düşünülə bilməz. Əhməd bin Musa "Mükəmməl nizamlar" adlı əsərində 1000-ə qədər avtomatik nəzarət sistemli alətin şəklini çəkmişdi. Əbul İsmayıl əl-Cəzəri (?-1206) isə "Kitabül Hiyel" adındakı mükəmməl əsəri ilə kibernetikanın qurucusu olmuşdur. Optika elminin təməllərini atan Ibni Heysəm (965-1051) "Görüntülər kitabı" ilə Rocer Bekon (12141294), Kepler (1571-1630) və Leonardo (1452-1519) kimi alimlərin fəaliyyətlərinə təkan vermişdi. Bu kitab 600 il elm dünyasında qaynaq olaraq qalmışdır. İşığın kürəvi aynalarda əks olunması öz adıyla anılan Əl-Hazən (Ibni Heysəmin Avropadakı ismi) problemi onun kəşfidir. Fərabi (870-950) səsin fiziki izahını vermiş, İbni Karara (?-1100) ilk torna dəzgahını qurmuşdu. İlk uçuş sınağını həyata keçirən Ismayıl Cövhəri (950-1010) olmuş, Əhməd Çələbi isə (XVII əsr) ilk uğurlu uçuşu həyata keçirə bilmişdir. Raket növündən olan ixtirasıyla ilk uçuş şərəfini isə IV Murad zamanında yaşayan Laqari Həsən Çələbi qazandı. İlk təyyarəni hələ 880-ci ildə İbni Firnans adında bir islam alimi qurdu. Quş tükü və qumaşdan da istifadə edərək hazırladığı təyyarəsi ilə uzun müddət havada qaldı və süzərək yerə endi. Qərbdə isə ancaq Rayt qardaşlarının 1903-də bir təyyarə ilə uça bildiyi məlumdur. Yerin cazibə qüvvəsinin Nyuton tərəfindən kəşf edilməsindən öncə Razidən tutmuş Biruniyə, hətta Haziniyə qədər Islam alimləri yerin cazibə qanunu ilə maraqlanmışlar. Islam alimləri Nyutondan əsrlərcə əvvəl yerin cazibəsini kəşf etmişlər və bu sahədə nəzəriyyələr ortaya atmışlar. Əl-Biruni "Nihâyâtü'l-Emâkin", qısa şəkildə "Hindistan" adlandırılan əsərində, ilk dəfə olaraq yerin günəş ətrafında hərəkətini və dünyanın hərəkətsiz deyil, dönən bir kütlə olduğunu Kopernikdən 500 il əvvəl söyləmiş və məşhur hind astronomu Brahmaquptanın "Yer hərəkətdə, göylər isə sükunətdədir" fikrini əsaslandırmışdır. Beləliklə, o, Koperniklə başlayan müasir astranomiya və fizikanın ilk təməllərini yaratmışdır. Kəfkirli saatdan Qalileydən (1564-1642) əvvəl Ibni Yunus istifadə etmişdir. Hazini "Mizanül hikmət" adlı əsərində tərəzilər haqqında bilgi vermiş, bir çox maddənin xüsusi çəkisini hesablamışdı. Biruni isə 18 maddənin xüsusi çəkisini, bir qismini bugünə tam uyğun olmaq üzrə hesablamışdı. Suyun qatılığını tapmış, havanın sıxlığını hesablamışdı. Küləyin sürəti ilə hava sıxlığı arasındakı əlaqəni Toriçellidən (1608-1647) daha əvvəl kəşf etmişdi. Atomda boyük bir enerjinin olduğunu, parçalana biləcəyini və parçalandığı zaman da Bağdadı alt-üst edə biləcək bir gücə sahib olduğunu ilk dəfə irəli sürən, "kimyanın atası" adını qazanan Cabir bin Həyyan (721-805) olmuşdur. Nəsirəddin Tusinin tələbəsi Qutbəddin Şirazi Dekartdan 300 il əvvəl alaimüssəma

(göyqurşağı) hadisəsini düzgün bir şəkildə izah etmişdi. Bütün bunlar bir daha göstərir ki, Şərq elmi Qərb elmini bir neçə əsr qabaqlamış, Qərbin elmi qənaətlərinin formalaşmasında, açıq şəkildə qeyd edilməsə də, Şərq düşüncə sisteminin mühüm rolu olmuşdur. Kvant fizikası ilə Orta əsrlər Şərq fəlsəfəsinin və dünyagörüşünün ana xəttini təşkil edən təsəvvüf arasında hansı münasibətlərin yatması ayrıca bir tədqiqat mövzusudur. Hər iki yanaşma - fizikada maddənin dərinliklərinə enmək və təsəvvüfdə şüurun dərinliklərinə yolçuluq – gündəlik həyatın gözlə görünən, adi görüntüsünün arxasındakı fərqli həqiqəti kəşf nöqtəsində birləşir. Fiziklər öz qənaətlərini təcrübələrə istinadən əldə edirlər, sufilər isə məqsədlərinə meditasiya – daxili müşahidə yolu ilə çatırlar. Təsəvvüfdə istifadə olunan "öz dərununa rücu etmək" deyimi bu insanın daxili dünyasına yolçuluğunu nəzərdə tuturdu. Fərd maddi dünyadan sıyırıb öz iç dünyasına dönür, qəlbində var olanı bu yolla kəşf edir. Insanın öz qəlbini kəşf etməsi fərdin universal aləmlə vəhdəti inancının əsas olduğu təsəvvüfdə elə kainatın özünü kəşf etməyə bərabər tutulur. Çünki, kainatın bir parçası olan insan ancaq özünü dərk etməklə zahiri dünyayı anlaya bilər. Kvant fizikasından çıxış edənlər və sufilər arasında bir digər ortaq nöqtə hər iki tərəfin adi hisslərin çata bilmədiyi "məkan" larda müşahidə aparması ilə bağlıdır. Kvant nəzəriyyəsi təbiətin bir-birinə asılılığını göstərir, bu səbəbdən bizə kainatı fiziki obyektlərin meydana gətirdiyi nəsnə kimi deyil, mürəkkəb qarşılıqlı əlaqələrdən hörülmüş vahid bütün olaraq izah edir. Sufilərin "Vəhdəti-Vücud" konsepsiyası kimi. İbrahim B.Seydin fikrincə, Əttar, Hafiz, İbn Ərəbi, Rumi, Bistami və digərlərinin sufizmlə bağlı mülahizələrinin köklü, güclü və son dərəcə poetik dilləri oxucunun məntiqi əqli düşüncə vərdişlərinin fövqündə dayanır. Və həmin məqaləsində Eyzenberqin bir dəfə Bora verdiyi sualı yada salır: "Atom təcrübələrində gördüyümüz kimi təbiət həqiqətən absurd ola bilər mi? [2] Ümumiyyətlə sufizm və kvant fizikası arasındakı oxşar məqamlar kifayət qədər çoxdur və geniş tədqiqat mövzusudur. Azərbaycan ədəbiyyatının da əsasında dayanan təsəvvüfün nə qədər dərin və yeni elmi axtarışlara açıq olduğunu bir daha qeyd etmək etməklə, təsəvvüf ədəbiyyatının dahi şairi Nəsimidən gətirəcəyimiz bir neçə nümunəylə fikrimizi tamamlamaq istərdik:

*Səndən məni kimdir ayıran, sən*
*Zahirdə vü batinimdə sənsən.*
*Həq vahidi-la-şərikü ləhdir,*
*Sənlik aradan götür ki, mənsən.*
*Ey aşiqi-sadiq, eylə bil ki,*
*Mə'şuqə rəvanü sən bədənsən.*
*Çün zahirü batin oldu vahid,*
*Həm cövhəri-canü eyni-tənsən. (Nəsimi)*
*Can necə tərk eyləsin, ey can, səni,*
*Çünki canın canısan, ey canımız! (Nəsimi)*
*Nəsimi, gəl sücud eylə bə-vəchüllahə ki, həqdir,*
*Anın şə'nində gəlmişdir bu munca vəscüdat andan. (Nəsimi)*

**Bədii düşüncənin tarixi və dəyişən paradiqmalar**

Bədii mətn və gerçəklik qarşıdurmasında, və ya gerçəkliyin mətndə öz təsdiqini tapıb-tapmaması məsələsi ilə bağlı nəzəri şərhi çətinləşdirən məqam, kifayət qədər bolluca terminlər sırasının mövcudluğuna dayanır. Mimesis – Aristotelsayağı "təqlid" və ya "təsvir" öz həqiqətə-uyğunluq prinsipi ilə, təxəyyül (öz uydurmaları ilə birlikdə), illuziya, uydurma-yalan, o cümlədən realizm, referent (istinad nöqtəsi) və referensiallıq, bunların konqurensiyası kimi çıxış edən Baxtin sayağı "diologizm", ondan başlanğıcını götürən "mətnlərarası münasibətlər" – bütün bunlar ədəbiyyatın özündən kənarda olana, zahiri dünyaya münasibətlərini müəyyənləşdirmək üçün fərqli zaman kəsiklərində və fərqli kultoroloji kontekstlərdə özünü təsdiq etdirməyə səy göstərmiş və göstərməkdədir. Bəs onda Ədəbiyyatı qeyri-ədəbiyatdan fərqləndirən xüsusiyyət, ədəbiyyat və

ədəbiyyat olmayan arasındakı cizgi necə müəyyənləşir və nə ilə xarakterizə olunur? Əgər ədəbiyyatın vəzifəsi gerçəkliyi öyrənmək və onu inikas etdirməkdirsə, eyni vəzifəni elm və fəlsəfə də daşıyır. Bu ortaq məkan daxilində ədəbiyyat öz yerini və səviyyəsini, eyni zamanda özünəməxsusluğunu necə formalaşdırır?

Ümumilikdə, bu məsələyə yanaşmada nəzəriyyədə iki istiqamət daha aparıcıdır. Ya bədii mətnin istinad nöqtəsi zahiri dünyadır və ya əksinə bədii mətnin istinad nöqtəsi bədii mətnin özüdür.

İnsan və gerçək dünya məsələsində fəlsəfə daima ikili yanaşma nümayiş etdirir. Məsələyə yanaşmada, materialist və idealist, rasionalist və irrasionalistlər hər zaman fərqli mövqelərdən çıxış etmişlər. Gerçək olan haqqında təsəvvürlərin obyektiv və subyektiv şəklinə əsaslanan dixotomiya adi məişət səviyyəsindən tutmuş dərin fəlsəfi təhlillərə qədər özünü göstərir. Analitik psixoloq Karl Qustav Yunq insanları özlərindən xaricdə baş verən hadisələrə münasibətinə və nümayiş etdirdikləri davranış tərzinə görə ekstravert (zahirə meylli) və introvert (daxilə meylli) olmaqla iki tipə bölürdü. [3, s.240-262]. Insan gerçəklik adlandırdığı bu böyük aləmi müxtəlif yollarla, fərqli mövqelərlə öyrənməyə can atır. Incəsənət, o cümlədən ədəbiyyat həm də gerçəkliyi dərk etməyə can atmanın ən ilkin formasıdır. Dil və mifologiyanın başlanğıcda ayrılmaz olduğunu metafora ilə izah etməyə çalışan Ernest Kassirerə görə, incəsənət də öz mənbəsində miflə sıx şəkildə əlaqədardır. Mif və incəsənət konkret və bölünməz bir varlığın tərkib hissələri kimi formalaşır. Zamanın sonrakı gedişatında bu vahid mənəvi yaradıcılıq – mifoloji təfəkkür- üç müstəqil növə ayrılır. Necə ki, dilin bətnində başlanğıcdan fəaliyyət göstərən Loqos özünə dildə yol açmaqla sözün dildə anlayış işarəsinə çevrilməsinə səbəb oldu, həmin proses incəsənətin forma və obrazlarının başına gəldi. Dünyanın magik modelində söz və obraz magiyası get-gedə zəifləyir. Mifopoetik təfəkkürdə magik elementin ayrılması ilə ümumi obraz müstəqilləşir, bədii ifadənin orijinal forması ortaya çıxır. Metaforanın gücünə əsaslanan mif və dil əlaqəliliyində loqosun üstünləşməsi ilə dil əvvəlki konseptual və emosional məzmununu itirir, yalnız bədii incəsənət sahəsində söz mifopoetik təfəkkürdən gəlmə, metaforik gücünü saxlayır. İlluziya və fantazya aləmində sözün bədiiləşməsi ilə, bir mənadan başqa mənaya köçürülmə, məna və forma dəyişkənliyi baş verə bilər. [4, s.83-84] Maraqlısı da bundadır ki, həm ədəbiyyatın referent (zahiri dünyaya istinadlılıq) səciyyəsinə inananların, həm ədəbiyyatın qeyri-referent spesifikasını qəbul edənlərin istinad mənbəyi Aristotelin Poetikasıdır. Mənşəyi Platona söykənən təqlid nəzəriyyəsi ilk məqamda sənəti ideyalardan əks olunmuş dünyanın inikası, dolayısı ilə də sənəti təqlidin təqlidi hesab edirdi. Platon özünün “Dövlət” əsərində sənəti “kölgənin kölgəsi” hesab edir və onun dəyərsizliyini təsbit etməyə çalışırdı və şairləri cəmiyyətdən qovmağı məsləhət görürdü. Aristotel məzmun dəyişikliyi etməklə Platona qarşı çıxır, mimesis və katarsis anlayışları ətrafındakı mülahizələrində sənəti ideyaya qovuşmaq yollarından biri, gerçək həyatın yorumlanması kimi dərk edirdi. Onun dünyasında sənətçilər – şairlər gerçək dünyanı öyrənənlər sırasına daxil idi. Aristoteldən başlayaraq, gerçək və onun əks olunması sənətin əsas qavrayışlarını təşkil etməyə başladı. Nəticədə, Qərb ədəbi təfəkküründə antik dövrdən başlayaraq, ta XVIII əsrin ortalarınadək, ədəbiyyat dedikdə insan və onun atdığı hər bir addımın nitq vasitəsilə təqlidi və ya reprezentasiyası (mimesisi) başa düşülürdü. Bir sözlə ədəbiyyat və gerçəklik arasındakı əlaqənin mahiyyətini aşkar etmək, istənilən fəaliyyət aktını bədiiləşdirmək, ona ədəbi status vermək vəzifəsinin daşıyıcısı kimi mimesis – təqlid nəzərdə tutulurdu. İncəsənətin gerçəkliyin – təbiətin təqlidi olması məsələsində yumşalmaları S.Todorov bu cür müşahidə edir: etalon qayda və qanunlar var: incəsənət təmiz təqlidin məhsuludur. Daha sonrakı səviyyələr bu etalondan yayınmanın şərt və ölçülərinə əsaslanır. Birinci halda etalon minimum səviyyədə pozulur, təqlid öz bütövlük və tamamlıq ölçülərindən imtina edir: təqlid natamam ola bilər. [5, s.139] Bu mərhələdə artıq Lessinq “Laakon”da bütövlüyün harmoniyasını qorumağı şərtləndirən “mümkün ola biləcək səhvlər” dən bəhs edir. Bu zaman Todorovun təbirincə desək, “təqlid etmək” feli “natamam” zərfi ilə birgə işlənir. Ikinci halda təqlid etmək tamamlıqla birgə müəyyənləşir. Artıq sadəcə təbiət deyil, artıq “gözəl təbiət”, seçilmiş və ora-burası düzəldilmiş təbiət təqlid obyektidir.

[5, s.140]. Bu məqamda Didro sadə təqlidi ideal təqdliddən fərqləndirir. Təbiətin ciddi və dəqiq təqlidi ona görə vacibdir ki, incəsənət yalan olmasın, lakin təkcə təqlid onu yoxsul, xırda, aciz edir [6]. Didroya görə, hər bir təqlid aktı özlüyündə, xüsusi dəyər və qanunauyğunluq ehtiva edən idealizə etmə etapıdır. Bəzən bu mərhələdə ədəbiyyat haqqında elmi-nəzəri fikirlərin tarixinin müəyyən mərhələsində incəsənətin əsas prinsipi kimi təqlidi əvəzləyəcək terminlərin ortaya çıxdığı güman edilsə də, bu yalnız təəssürat səviyyəsində qalır. Deni Didro təqlid etmək felinin yanında iki əks mövqeli tamamlıq istifadə edir: təbiəti təqlid etmək və qədimləri təqlid etmək: təbiəti təqlid etmək və Homeri təqlid etməyi bir-birindən fərqləndirir. Başqa əsərlərin təqlidi təbiətin təqlid olunması şəkli ilə üst-üstə düşmür. Qədim əsərləri yalnız onların özlərinin təbiəti təqlid etdikləri formada təqlid etmək olar ki, əks təqdirdə bu incəsənətin xassəsinə çevrilə bilməz. Didro bu qədim olanı - başqalarını təqlid etməyi "manera" adlandırırdı. Eyni zamanda Didro özünün istifadə etdiyi manera anlayışına qarşı sərt münasibəti var: təsviri sənətlərdə manyerizmi əxlaqda ikiüzlülüyə bərabər tuturdu. Təqlidsiz keçinməinin başqa bir yoluna Didroda şərtilik anlayışı adı altında rast gəlmək olar. Şərtiliyin mövcudluğunu etiraf etməklə yanaşı, onu təqlidə tabe edir, eyni zamanda şərtliyini mükəmməl təqlidə neqativ münasibətdə günahlandırır... Didro təbiətin, hətta gözəl təbiətin, hətta həqiqətini özünün olduqca dəqiq təqlidini mümkünsüzlüyünü, təbiət həqiqəti və onun təqlidi olan şərti həqiqəti arasındakı sərhədi sezir, lakin onun mahiyyətini sonuna qədər açıqlaya bilmir [5, s.153]. XVIII əsrin ortalarından mimesis prinsipi gözəllik ideyası ilə qarışmış şəkildə mövcud olur. Lakin gerçəkliyin inikasında təqlid və gözəllik prinsipləri bu mərhələdə hələ sinkretik şəkildədir, "əgər bu iki tərəf arasında cüzi də olsa konflikt sezilərdisə, dərhal üstünlük təqlidin xeyrinə həll olunurdu" [5, s.154]. Gerçəkliyin təqlidi prinsipininin incəsənətin, o cümlədən ədəbiyyatın əsas özəlliyi statusu kimi çıxış etməsi hadisəsinin zəifləməsi ərəfəsini adətən romantizmlə bağlayırlar. Klassizmin rasionalist, əxlaqı hər şeydən uca tutan, quru və tənqidçi, insani hiss və duyğuları nəzarət altında saxlayan ədəbiyyat anlayışının daxilində tədricən, duyğulara, xəyallara və mənəvi ehtiraslara ehtiyac olduğu ortaya çıxır və bu proses romantizmlə nəticələnir. Sənətdə yaradıcı olmaq problemini, daxili dünyanın, subyektvliyin xarıcı aləmə yansıması, obyektivləşməsi şəklində baş verməsini ilk dəfə romantiklər gerçəkləşdirir. Daxili "mənin" və fərdin təkcəliyini önə sürən romantiklər üçün yaradıcılıq daxili aləmin, zahirdə bilinməyənin anladılmasıdır. Romantik yazıçının özünə yüklədiyi missiyanın mahiyyətində mövcud gerçəkliyin və onun bədiiləşmiş konsepsiyasının yaradılmasında artıq norma və qaydalara tabe olmamaq, eyni zamanda cəmiyyətin və ictimai kütlələrin rifahına can atmaq bir arada əks olunur. Bu bərabərliyin pozulması nəticəsində "Sənət sənət üçündür" tərəfdarları ilə "Sənət cəmiyyət üçündür" (sosial romantizm) tərəfdarları bir-birindən ayrılır. Romantizm şeirdə yerini Parnas məktəbinə (sənət sənət üçündür), romanda isə realizmə (sənət cəmiyyət üçündür) buraxır. Romantizmə reaksiya olaraq yaranmış bir sənət və ədəbi cərəyan kimi dəyər qazanan realizm faktların duyğu, xəyal və metafizika ilə deyil, maddi gerçəklərlə açıqlanması nəticəsinə gəlmişdir. Realizmin anlaşılmasında ikinci əhəmiyyətli faktor olan Oqyust Kontun (1798-1857) pozitivizmidir ki, səbəb-nəticə əlaqəsinin əhəmiyyət verirdi, təbiəti və insanları elmin iki əsas vasitəsi – müşahidə və təcrübə ilə şərh edirdi. Realizmin mövzusu gerçək həyatdır, fövqəltəbii hadisələrə bir o qədər də yer verilmir. Realist ədəbiyyatda üslub çılpaqlığına, möhkəm, söz oyunlarından uzaq dilə əhəmiyyət verilməsi, əsərlərdə həyat gerçəklərinin təqdiminin öndə gəlişi səciyyəvidir. Əgər Qərbdə realizm romantizmdən sonra mimesisin yenidən oyanışı hadisəsidirsə, Şərqin mifopoetik təfəkkür sistemindən və epos yaratmadan sonra, divan ədəbiyyatı sərhədləri daxilində nə mimesisin, nə də realist təqlidin yeri görsənmir və ümumiyyətlə bu boşluq kimi səciyyələmir. "Orta əsrlər Şərq ədəbiyyatı XX əsrə qədərki Qərb ədəbiyyatından fərqli olaraq daha çoxqatlı və dünya modelinə yaxın olan ədəbiyyatdır" [7, s.23]. Şərq ədəbiyyatının müəyyənliyi "...çoxqatlılıq, mifologiya, din və fəlsəfənin ənənəvi bədii strukturda tutduğu yerlə", "tamdeyilməzliklə yaranan bədiiliklə", "daim örtüdə, pərdədə saxlanılan ilahi mahiyyət kimi, əsl mənanın da dərin qatlarda gizlənməsi" ilə ölçülür [7, s.23]. Şərqin bədii

təfəkkürü immanentdir, mövcud olduğu zamanın gerçəkliklərinə o birbaşa müdaxilə etmir, ideyalar vasitəsilə, dolayısı ilə çatır, gerçəklik divan ədəbiyyatında ideoloji diskursdur.

Milli təfəkkürdə realizmin sabitləşməsi XIX əsrin sonlarından baş verir. Qərb üçün bütöv XIX əsr realizm əsridir. Tarixən realizm idrak obyektinin idrakdan xaricdə və ona nisbətən müstəqil mövcudluğunu qəbul edən təlim hesab edilmişdir. Və bunun müqabilində şüur həyat gerçəkliyinin inikası sayılırdı və həmin gerçəkliyin bizim şüurumuzdan asılı olmayaraq mövcud olma xüsusiyyətinə malik olması sayəsində insan gerçəkliklə özünün istədiyi kimi yox, gerçəkliyin tələb etdiyi kimi yanaşmaya əsaslanır. Sosrealizmin sütünlarından marksist təliminə görə, şüur insanın maddi, xüsusilə ekonomik dünyanın inikasından başqa bir şey deyil. Realizmin sovet ədəbiyyatında materializm və marksçı fəlsəfə ilə birləşimi nəticəsində ortaya çıxan sosialist realizminin paradiqmaları çərçivəsində ədəbiyyat yaratmaq əsas məqsəd idi. Sovet idarəçiliyi öz tabeliyində saxlamağa çalışdığı – ən aşağı səviyyədə fərdi insandan başlayaraq, ayrı-ayrı milli ədəbiyyat və mədəniyyətlərə öz orijinal və mövcud ədəbi sistemləri ilə çıxış etməyə imkan vermirdi. Çünki, hər bir fərdi insanın mənəvi dünyasının qapılarının açılması, onun xəyali və fantastik dünyasında arzularının gerçəkləşə biləcəyi, mənəvi-tarixi yaddaşına əsaslanan sistemli dünya görüşünün, eyni zamanda hər çür doqmatik prinsip və etalon ölçülərə sığmayan rəngarəng, çoxçeşitli dünya modelləri, sosial həyat və rifah arzularının sərgilənməsi demək idi. Zorla tətbiq olunmuş xarici dünya ilə fərdin daxili aləminin konfliktinin baş verməsi sosialist realizminin gələcəklə bağlı ideyalarına uyğun gəlmirdi, yeganə çıxış yolu subyektlə obyekt arasında kəskin sərhəd qoymaq, və birincini ikinciyə tabe etmək idi.

Realizm termininin ədəbiyyatda sərgilədiyi mövqe bəzən qarışıq səciyyə daşıyır. Rene Uellek, R. O. Yakobson, L.Y.Qinzburq kimi tədqiqatçılar realizm terminin ifadə etdiyi mənanın düzgün anlaşılması üçün onun mənşəyinə və diaxronik planda inkişafına diqqətlə nəzər salmağı, anlayışın semantik strukturunda ikimənalılığı sezməyi məsləhət bilirlər (Rene Uellek, R.Y.Yakobson, L.Qinzburq). Rene Uellek XIX əsr hadisəsi olan realizmi özündən əvvəlki mərhələlərdə nominalizmlə oppozisiyada dayanan realizm anlayışından fərqləndirir. Hansı kontekstdə, hansı şərtlər altında ifadə olunmasından asılı olmayaraq, fikirlərin gerçəkliyinə inanmaq anlamında realizm bir növ nominalizmlə kəsişir. Ikinci bir tərəfdən isə, realizm özündən əvvəlki və özündən sonrakı bədii-poetik sistemlərindən fərqlənən, özünün norma və ölçüləri olan qapalı struktur kimi sırf XIX əsr hadisəsidir [8, s.306]. XIX əsrin realizm hadisəsinə və bu mərhələdəki realist üslüblara qədər zahiri dünyanın təsviri əsasən deduktiv səciyyəlidir, ümummənşəli əlamətlərə və ya ənənəvi müəyyənləşmələrin öngörmələrinə istinad edir, bu şeylərin necə ola bilər şəkildə ifadəsidir. XIX əsr hadisəsi olan realizm isə, "induktiv hadisədir", bədii deyimin "məkan və zamanda qəti yerləşimi", bir növ konkretləşməsi hadisəsisidir [9, s.21]. Romantizmə reaksiya olaraq yaranmış bir sənət və ədəbi cərəyan kimi dəyər qazanan realizm faktların duyğu, xəyal ilə deyil, maddi gerçəklərlə açıqlanması nəticəsinə gəlmişdir. Yakobsonun realizm barədə funksional-dinamik konsepsiyasına görə, incəsənət tarixində istənilən bədii tendensiya özündən əvvəlkini əvəzləyərkən, özünü realist elan edir. O, mühakimələrində bədii realizm anlayışının zidiyyətliliyini, bədii təcrübənin hər hansı spesifik mərhələsini və ya sahəsini əhatə etməməsini, bir sözlə nəzəri-metodolji konsepsiya kimi konkret bir mərhələ ilə səciyyələnmədiyini vurğulayır, bu mülahizələrdən çıxan son qərarı isə onun əvəzinə V.P.Rudnev verir: "ən yaxşısı ondan imtina etməkdir" [10, s.193]. Realizmin zidiyyətli və çoxmənalılığı diaxron planda və oppozisiyalarda üzə çıxır; realizm-nominalizm, realizm-idealizm, psixologiyada realistik və qeyri-realistik şüur (autistik şüur). Realistik şüur- zahiri dünyaya harmoniyada, özünü təbiətin bir parçası kimi dərk etmədir, onun əksi olan autistik şüur – öz-özünə yükləmədir, mənəvi dünyanın zəngin fantastikası ilə yükləmədir. Psixologiyada şüurun realist-qeyri-realist (autistik) tipoloji təsnifatı [10, s.193] öz ekvivalentini fəlsəfədə realist və idealist, estetik düşüncədə realist və qeyri-realist (antirealizm cəbhəsinə daxil olanların hamısı) ikilisində tapır.

Gerçəklik və həqiqətə uyğunluğun sənətlə, o cümlədən ədəbiyyatla necə açıqlana bilməsi sualı, həqiqilik və doğruluk prinsipləri bədii düçüncədə özünü göstərə bilər və bilməz şəklində cavablara səbəb ola bilər. Həqiqət-gerçəklik prosesinin bir inikas prosesi olaraq görmək klassik elmi bilginin özünəməxsus şəklidir, ona görə həqiqət gerçəkliyin güzgüdəki rəsmidir. Bu o deməkdir, gerçəkliklə tam olaraq, üst-üstə düşən tək bir rəsm var və hər yerdə o rəsm keçərlidir. Gerçəklik haqqında tək bir həqiqət var. Lakin fəlsəfədə hələ sofistlərdən başlayaraq tək həqiqət anlayışına qarşı ciddi bir şübhə vardır. Bu şübhə XX əsrdə öz ətrafına daha çox səslər yığır. Həmin səslərə görə həqiqət gerçəkliyin güzgüdəki əksi deyil, gerçəklik haqqında bir yenidənqurma, inşa, yaratmadır. Özü də bu yaratma nisbidir – o fərqli kontekstlərdə fərqli kodlar əsasında yaranır. XX əsrin bədii düşüncəsində yaşanan bu paradiqma dəyişikliyinin kvant fizikası ilə səsləşən bir çox tərəfləri var idi.

**Kvant fizikası və XX əsr ədəbiyyatı.**

Kvant fizikasının kəşfi özündən sonra demək olar ki, bütün elm sahələrinə təsir etdi. Klassik fizikanın mütləq maddə və determinizm prinsiplərini inkar edən Kvant nəzəriyyəsinin yaranması (Plank, De-Broyl, Şredinger və b.), De-Broyl dalğalarının və Heyzenberq münasibətinin kəşfi (1927), Eynşteynin nisbilik nəzəriyyəsinin yaranması (1905), atomun quruluşu haqqında Bor postulatları (1913), Rezerfordunatom nüvəsinin kəşfi (1911), Rentgen tərəfindən rentgen şüalarının kəşfi (1895), tranzistor effektinin kəşfi, yarımkeçiricilər elektronikasının inkişafı, optoelektronika, lazerlərin ixtirası, nüvə energetikası, sinergetika, xaos, nanofizika, nanotexnologiya və s. ardıcıl proses kimi günümüzə qədər davam edir. Yalnız təbiət və texniki elmlər sahəsində deyil, eləcə də fəlsəfə, psixologiya, sosiologiya v.s sahələrdə kvant nəzəriyyəsinə əsaslanan yeni konsepsiyalar formalaşdı.

Bəs ədəbiyyat? Kvant fizikasının kəşfi ilə paralel zamanda bədii ədəbiyyatda baş verən dəyişikliklərin fizika ilə bir bağlantısı var idimi? Həmin dövrdə ümumiyyətlə, dünya ədəbiyyatında nə baş verirdi? Kvant fizikasının ilk addımlarını atdığı dönəmlərdə dünya ədəbiyyatında dəyişikliklər əsasən modernizm kontekstində baş verirdi. **Modernizm** XIX yüzilliyin sonu XX yüzilliyin birinci yarısında incəsənətdə, ədəbiyyatda və fəlsəfədə keçmiş tarixi ənənələrdən ayrılma ilə müşaiyət edilən cərəyan kimi xarakterizə olunur. Kvant fizikası öz klassik əcdadını müəyyən anlamda inkar etdiyi kimi, bu dövrün ədəbiyyatı da inkaretmə mövqeyində dayanırdı. Çünki, nə qədər fərqli təzahür formaları olmasına rəğmən, hər iki dünyayabaxış sisteminin yaradıcısı İnsan idi. İnsan hərtərəfli dəyişirdi. İnsanın ətraf dünyanı və özünü kəşf etməsində yeni bir mərhələ başlamışdı. Modernizmin bütün hallarında istər mülayim şəkildə (kubizm və ekspressionizm), istərsə sərt-rüsvayçı aqressivliyində (futurizm, dadaizm, pop-art və s.) keçmişdən qəti surətdə imtina etdiyinə inanılır. İtalyan F.T.Marinettinin futurist ədəbiyyatın texniki manifestində irəli sürdüyü "...Muzeylər və qəbiristanlıqlar! Bunları bir-birindən fərqləndirmək olmur – heç kimin tanımadığı və fərqlənməyən meyidlərin bəd yığnağı.... Biz bütün muzeyləri, kitabxanaları məhv edəcəyik...İtaliyanı xəstəlikdən qurtaracağıq – tarixçilərdən, arxeoloqlardan, sənətşünaslardan, əntiqçilərdən...." [11] müddəaları modernizmin keçmişə nihilist münasibətinin ən qatı təzahür forması idi. Ümumiyyətlə, modernizmin bədii əsərlərində, estetik traktatlarında, publisistik bəyanatlarında dünya absurd təsvir olunur, ziddiyyət və konfliktləri həll etməkdə çarəsiz insanın isə bu absurd məkanda hərəkət etməsi mənasızdır. Reallıqla, mədəniyyətlə, təbiət və cəmiyyətlə əlaqəsini itirmiş modernist sənətkarın tənha və xəyali azadlığı, onun öz fantaziyaları, xatirələri, subyektiv assosiasiya və mücərrəd konstruksiyaları ilə qapalı məkanda qalmasına səbəb olur. Modernizm kontekstində bədii ədəbiyyat böyük aləmi (gerçəklik, dünya, kainat və s.) kiçik aləm (İnsan) vasitəsilə dərk edirdi. Modernizmin ardınca postmodernizm əsrin ikinci yarısında dünyanın əsas düşüncə modelinə çevrildi.

XX əsrin elmi, fəlsəfi, ümumiyyətlə düşüncə paradiqmalarında baş verən dəyişikliklər Qərbdə başlasa da yüksək sürətli şaxələnmə gücü ilə bütün dünyanı öz əhatə dairəsinə aldı. Həm də bu yayılmanın bir səbəbi də Yeni Qərb təfəkkür modelində Şərqə bənzər ünsürlərin ortaya çıxışı idi.

XIX əsrin sonu XX əsrin əvvəllərində pozitiv əqlin böhranı, rasional dünyagörüşün darmadağın olması ilə Qərb kökü Aristotelə dayanan böyük bir ənənədən imtina etməli oldu [12, s.167]. Təbii ki, təbiət elmləri sahəsində nisbilik nəzəriyyəsi və kvant mexanikasının tətbiqi ilə gerçəkliyin qavrayış normalarına sığmayacaq qədər böyük olduğu ortaya çıxdı. Nəticə etibarilə, rasionalist ağıl bu genişliyi olduğu şəkildə dərk etməkdə yetərsizliyini gördü. Tamamlama prinsipi (Nils Bor) ilə çıxmaq məcburiyyəti qərb insanını yeni təfəkkür modelləri gəlişdirməyə sövq edirdi. Burada baş verən dəyişikliklərin bədii təfəkkür prosesinə təsiri baxımından maraqlı olanlarını qeyd etmək istərdik. Belə ki, XX əsrin incəsənətinin, o cümlədən ədəbiyyatının əsas səciyyəsini müəyyənləşdirən və müasir fizikanın mahiyyətini təşkil edən prinsiplərdən bəzilərinə diqqət yetirək.

***Gerçəkliyin sonsuz və tükənməzliyi prinsipi***

*Gerçəklik sonsuzdur, onları ifadə edən anlayışlar isə nisbətən məhdud və konservativdir.* Buna görə də, gerçəyin modellərinin cizarkən tamamlamaya yol verilə bilər: bu tamamlamaların seçimi maraqlıdır: çünki, onların məzmunu yaranacaq sistemlərə zahiri görünüş və mahiyyət özəlliyinin verilməsini şərtləndirir. Yəni, ədəbiyyat artıq gerçəklik, həqiqət, doğruluq kateqoriyaları ilə mübarizədə rasionalist olmadığını bir daha göstərdi. Qərb pozitivizminin yaratdığı realizm konsepsiyalarının ədəbiyyat üzərindəki hegemoniyası tədricən yox olmağa başladı. Gerçəklik anlayışının öz mahiyyəti dəyişdi. Gerçəklik təkcə gözlə görünən, əllə tutulan, toxunduqda hiss olunan mahiyyətini itirdi. Kvant fizikası makrokosmosun yerinə, normal əqli düşüncənin anlamaqda güclük çəkdiyi mikrokosmosu öyrənməyə başladığı kimi, dövrün ədəbiyyatı da, daha çox insanın gözlə görünməyən tərəfini, mənəvi-ruhi vəziyyətlərini bədiiləşdirməklə məşğul oldu. Klassik mənada gerçəkliyi müşahidə edib yazan yazarın yerini, özünü müşahidə edib, danışan yazarlar aldı. Dövrün modernist sənət cərəyanlarının dini mistik baxışları insanı subyektləşdirir, irrasionallaşdırır, bir sözlə gerçəklik haqqında fikir və mülahizələrin yalnız rasional səciyyə daşımadığını göstərirdilər. İrrasional düşüncənin yaratdığı bədii əsərlər ortaya çıxmağa başladı. Folknerin, Virciniya Vulfun, Albyer Kamyunun, Jan-Pol Sartrın əsərlərində modern insanın özünü kainatda tənha hiss etməsi ilə, öz daxilinə baş vurması və daxili müşahidələri ilə kainatı dərk etmək cəhdlərindən bəhs olunurdu. Fizika sahəsində zaman anlayışına yeni münasibətin formalaşması, prinsipial olaraq ədəbiyyat və incəsənətdə də zamana marağın böyüməsi ilə paralel şəkildə baş verir. Özünün ölümqabağı avtobioqrafik qeydlərində Eyzenşteyn zaman axtarışlarını XX əsr personajlarının mərkəzi dramı adlandırmışdır [13, s.58]. XX əsrdə zaman bədii mətnə iki yolla, mətnin konstuktiv planı kimi, həm də tematika səviyyəsində daxil olurdu. Jan pol-Sartr 1939-cu ildə Foknerin "Səs-küy və hiddət" romanında zaman probleminə həsr olunmuş məqaləsində belə bir ümumiləşdirmə aparmışdır "Müasir yazıçıların böyük əksəriyyəti – Prust, Joys, Dos Passos, Folkner, Jid və Virciniya Vulf – hər biri özünəməxsus şəkildə zamanı şikəst etməyə çalışmışlar. Bəziləri onu keçmiş və gələcəkdən məhrum edərək, təmiz intiutiv məqama çevirdilər; başqaları, məsələn Dos Passos onu məhdud və mexaniki yaddaşa döndərdilər. Prust və Folkner sadəcə olaraq zamanın boynunu vurdular; onun sərbəst seçim və hərəkət ölçüsünü, gələcəyini əlindən aldılar" [14, s.191]. Sartr bu qeyri-adi zaman konsepsiyasının yaranması səbəblərini belə izah edir: "səbəbləri bizim çağdaş həyatımızın sosial şərtlərində axtarmaq lazımdır.. gördüyümüz, yaşadığımız hər şey bizi bunu deməyə məcbur edir.. "Bu cür davam edə bilməz." Biz qeyri-adi dəyişikliklər epoxasında yaşayırıq, və Folkner də qeyri-adi sənətkarlığı ilə köhnə dünyanın necə məhv olmasını və bizim bu dünyada necə ağır nəfəs almağımızı və boğulduğumuzu təsvir edir." [14, s.191-192]

***Müşahidə edən, müşahidə olunan və müşahidə alətinin bütünlüyü prinsipi –***

Bir kvant hadisəsini, "ölçmə aləti", "ölçülən zərrəcik" və ikisi arasındakı "qarşılıqlı təsir" müddətini nəzərə almadan təyin etmək mümkün deyil. Ölçü müddətində "ölçən" və "ölçülən" şeylərin vəzifələrini ayrı-ayrı təyin etmək mümkün olmadığından, Kopenhagen şərhinə görə nəyin ölçən, nəyin ölçülən olduğunu ayırmaq qeyri-mümkündür. Bir obyekt (ölçülən) -subyekt (ölçən) qarışığı meydana gəlir. Müşahidə olunan, xüsusiyyətləri öyrənilən nəsnə (ölçülən-obyekt) ilə bu dinamik xüsusiyyətləri öyrənənin (ölçən-subyekt) bir-birinə qarışması baş verir. Kvant fizikasında

müşahidəçi faktoru xüsusi önəm daşıyır. Mümkün ola biləcək bütün nəticələrin səbəbkarı bu müşahidəçidir. Müşahidə obyektinin müəyyənləşməsi də ondan birbaşa asılıdır. Ümumiyyətlə, subyektlə obyekt, işarə ilə işarə olunan arasındakı münasibətlərdə hər iki tərəfini bir-birinə adekvat yanaşmasının ifadəsi olan həqiqət, həqiqətəuyğunluq anlayışının klassik məzmunundan nəinki müasir sənət, o cümlədən elm və fəlsəfə də imtina edir. *İdrakın predmeti idrakın özüdür, düşüncənin obyekti başqa bir düşüncədir. Bu XX əsrin tapıntısı idi.* Beneddito Kroçe reallığa, bədii təfəkkürün – estetik yaradıcılığın məhsulu, idraka aktiv fəaliyyət – şüura məxsus potensiyanın gerçəkləşməsi imkanı kimi baxırdı. Bir halda ki, idrak öz predmetini özü yaradır. İdrakın predmeti idrakın özüdür. Bütün yaradıcılıq prosesi – metafizika, din, poeziya, ədəbiyyat, incəsənət, əxlaq və s. mifologiyadır; tarixin özü miftörətmə prosesindən başqa bir şey deyildir [15, s.101]. E.Kassirer insanı animal symbolicum yəni "simvol yaradan məxluq" adlandırırdı, çünki insan dünya ilə əlaqə və münasibət yaratmaq üçün özü bəşəri vasitələr – simvollar yaradır. Simvol-gerçəkliyi bəyan edən formadır; o vəhdət, emblem, yaradıcılıq, məqsəd, idrak, mədəniyyət, məzmun və s. açan və ya onların mənalarına aparan yoldur [15, s.137]. Simvolun mənalılılığı hətta mifin həqiqət olduğunu sübut edir. Anri Berqson (1859-1941) özünün intuitiv fəlsəfəsində idrakın obyekti ilə subyektini, materiya ilə şüuru vahid tam kimi götürür; bu tamlıqda obyektin və subyektin mövcudluğu və fəaliyyəti bir-birini şərtləndirir, onlar ayrı-ayrılıqda düşünülmədiyindən hansının genetik cəhətdən hansına niisbətən ilkin olduğu haqqında məsələ qoyulmur və ona cavab axtarılmır [15, s.200]. Berqsona görə idrak zamanla, təkamüllə əlaqədardır. Təkamül – yaşama müddəti, davamiyyətlilik, idrakın genezisi onun forma və məzmunu üçün şərtdir [15, s.202]. İnsanla kosmosun vəhdəti haqqındakı Heraklit müddəasına görə "Varlıq – vəhdətdir", belə bir ontoloji baza Şpenqlerə varlıqla təfəkkürü, materiya ilə şüuru, dünya ilə insanı, maddi ilə mənəvini, təbiətlə cəmiyyəti ayrı-ayrılıqda təsəvvür etmək imkanı vermirdi. Ona görə, fəlsəfədə materializm, idealizm, obyektivizm, subyektivizm və s. təfəkkürün sonrakı inkişaf mərhələsinin – onun degenerasiya, cırlaşma mərhələsinin məhsuludur. İlkin fəlsəfədə bunlar olmamış və müasir fəlsəfə öz çıxış momentinə də onlardan təmizlənmiş şəkildə qayıtmalıdır [15, s.215-216]. Amerika praqmatiklərindən Uilyam Cems bildirirdi ki, varlığın təbiəti və mahiyyəti ancaq insan təcrübəsinin nəticəsi hesab edilə bilər, zira insan ancaq təcrübədə - özünün praktik fəaliyyəti prosesində öyrənə bilər ki, varlıq bu və ya digər ontoloji ideya, onun üçün nədir və nə dərəcədə faydalıdır. Dekartın "cogito ergo sum"undan sonra subyektlivliyin tədricən başlayan təsdiqi və onun obyektlə binar münasibəti, ikiləşməni çağdaş fikir qəbul edə bilmir. XX əsrin ikinci yarısında postmodern düşüncədə M.Fuko, J.Derrida, J.Lakan, J.Delez subyektin epistomoloji-metafiziki, sosial-siyasi varlıq statusundan imtina edirdilər. İnsanın subyekt kimi gəlişimini izləyən Fuko eyni zamanda onun Ölümünə də fitva verir [16, s.485-487], onun üçün subyekt hər dəfə özü ilə dəyişik oyunlar oynayan bir qurmacadır. Derridanın "Qərb metafizikasında" mövcud bədən-ruh, daxili-zahiri, görünüş-mahiyyət və s.dixotomiyalar kimi subyekt-obyekt ikilisinin də dekonstruksiyaya ehtiyacından bəhs edilir. Kvant fizikasının müşahidə edən, müşahidə olunan və müşahidə aləti bütünlüyü, fəlsəfənin subyekt-obyekt dixotomiyasından imtina etməsi, bədii ədəbiyyatda müəllif və oxucunun hüquqlarının bərabərləşməsi şəklində təzahür etdi. "Müəllifin ölümü" konsepsiyasını və oxucu amilinin mətnlərarası münasibətlərdəki yerini bilmədən müasir bədii əsərləri anlamaq bəzən qeyri-mümkün olur. Demək olar ki, kvant fizikasında müşahidə edən, müşahidə olunan və müşahidə aləti modeli bədii ədəbiyyatda müəllif-əsər-oxucu triadası şəklində təzahür etmiş olur. Bu modeldə hər üç tərəfin eyni hüquqa malik olduğunu təsbit etmək vacibdir. Müəllifin bədii informasiyasını qəbul edən oxucunun bu məlumatı həzm edərkən kifayət qədər sərbəst davrandığı ki, özünü "mətnlərarası müxtəlif səpgili gəzintilərin nəticəsi" elan edən əsər də bir o qədər müstəqildir. Bədii əsərin mahiyyətinə üçlünün bütövlüyünü təsdiq edərək varmaq mümkündür.

**Dualizm, mümkün ehtimallar, qeyri-müəyyənlik prinsipləri**

Kvant fizikasında dalğa/zərrəcik ikilisi haqqında yuxarıda bəhs etmişdik. Bəzən elmi-kütləvi ədəbiyyatda bunu ruh-bədən münasibətləri kimi xarakterizə edirlər. Bir sözlə, kvant nəzəriyyəçilər

işığın ikili xarakter daşıdığını qəbul edirlər. Kvant fizikasında Şrödingerin pişiyi - Avstriyalı fizik Ervin Şrödinger tərəfindən ortaya atılmış, haqqında bir çox müzakirələr aparılmış düşüncə təcrübəsi var. Adətən kvant mexanikası və Kopenhagen təfsiriylə əlaqəli olan bir paradoks olaraq bilinir. Təcrübə, 1935-ci ildə ortaya atılmışdır və tamamilə nəzəri bir təcrübədir. Təcrübə, Şrödingerin Kopenhagen təfsiri və ümumi olaraq kvant fizikasında gördüyü bəzi problemləri açıqlayır. Bu təcrübə sonda ölü ya da diri ola biləcək xəyali bir pişiklə əlaqədardır. Pişiyin ölü ya da diri olması, müşahidədən əvvəlki təsadüfi bir vəziyyətin nəticəsidir. Yəni pişiyin ölü və diri olması iki ehtimaldır. Materialistlər, eləcə də determinizm (səbəbiyyət) fəlsəfəsinə və təkamül nəzəriyyəsinə bağlı olanlar kainatda, eləcə də təbiətdə müşahidə etdiklərini ilk öncə müxtəlif siniflərə ayırır, daha sonra bunların bir-birinin yaradıcısı olduğunu iddia edirlər. Determinizmin məntiqinə görə hər bir şeyin bir səbəbi olmalıdır. Bu səbəbin də bir başqa səbəbi olması zəruridir. Bu da sonsuz ziddiyyət deməkdir. Kvant fizikasının mikrokainat konsepsiyasından doğan qeyri-müəyyənlik və dualizm prinsipləri eyni zamanda postmodernizm üçün də keçərlidir. Dünya ədəbiyyatşünaslığında “fiction” termini ilə təyin edilən bədii əsərin ənənəvi klassik və modern-avanqard variantlarının söykəndiyi ideya-estetik prinsipləri kafi hesab etməyən postmodernizm, dünyaya, gerçəkliyə alternativ bədii modelləri hazırlarkən, model qurmanın – qurmacanın bir addım üstünə çıxır, metafiksasiya – bədiiliyin fövqündə dayanan mətnlər yaradır. Özünə qədər qurulmuş dünya modellərinin qurmacasını toxuyur. Mətnləri öz mətnində əridir. Hər hansı bir hadisənin izahı edilməsi üçün hadisəyə bağlı olaraq müəyyən bir məkan, zaman, şəxs heyəti çərçivəsində yaradılan ənənəvi ədəbi mətnlər, postmodern ədəbiyyatda **meta fiction**a çevrilir. Postmodern şərhçilərə görə, sənaye cəmiyyəti bitmiş yeni bir informasiya cəmiyyəti reallaşmışdır. Modernizmin ideallarının, ideologiyalarının iflas etdiyini önə sürən postmodern düşüncənin təməl dayağı "son"lardır. Hər şeyin yenidən başladığını düşünən postmodernlər hər cür "son"a maraqlıdırlar; tarixin sonuna , insanlığın sonuna, elmin sonuna, həyatın sonuna. Elmin əldə etdiklərinə, mövcud ideologiyalara şübhə ilə yanaşan postmodernizmin daxilində daima oxucunu müxtəlif mustəvilərdə gəzişməyə vadar edən, təhrikedici bir intelektualizm gizlənir. Modernist daxili dünyanın, şüurun labirintlərində gəzərkən, postmodernist "səthi" dünyalarda gəzir. Çoxsəslilik, parçalılıq, müxtəlifcinsli anlayışların bir müstəvidə yığımı, avanqard sənətlə kütləvi mədəniyyət arasındakı məsafənin bağlanılması, sənətlə həyatın birləşdirilməsi, mətnlər arası yolçuluq, dəyişik parçaların bir yerdə istifadə edilməsi, yazma müddətinə oxucunun daxil edilməsi, janr ayrı-seçkiliyinə son qoymaq, ideologiyadan imtina, mətnlərin xüsusi şifrələr və kodlarla qurulması və mətnin struktur-semantik çözülməsində onların deşifrəsi, sistemli və nizamlı olandan imtina, hər şeyin naməlum və müəmmalı tərəflərinin qabardılması, dəqiqlikdən uzaqlaşma, paradokslar, təsadüflər və iç-içə keçmiş zaman paralelləri yaratmaq, parodiya, pastiş, şizofreniya, istehza, pluralizm postmodern təhkiyənin əsas göstəriciləri hesab olunur. Postmodern təhkiyələrdə səbəb-nəticə əlaqəsi yoxdur, hər şey boşluqda, ölçüsüz, ələ ovuca gəlməz, cismini itirmiş şəkildə təsvir olunur. Gerçək və xəyalı bir-birindən fərləndirmək qeyri-mümkündür. Postmodernist ədəbiyyatın modeli olan metafiksasiyada bədiilik ilə gerçəkliyin sərhədləri tamamilə pozulur, nəyin gerçək, nəyin bədii olduğunu anlamaq üçün oxucunun intellektuallığı ön plana keçir. Mətnin sadə, anlaşılan, səbəb-nəticə əlaqəli strukturu çoxqatlı, öz metaforik mürəkkəblliliyi ilə seçilən, işarələrin kombinasiyasında hörülən mətn strukturları ilə əvəz olunmağa başlanır. Keçmiş-gələcək, yalan-gerçək, yaşam-ölüm və digər mümkün oppozisiyalardan istifadə postmodernizmin səciyyəvi cəhətidir. Sənətin bu dəyişimə reaksiyası əvvəlcə çox sərt şəkildə baş verir. Sənət öz estetik sələfindən imtina edir. Öz bütövlüyünü və vəhdətini, özünə inamı itirmiş, parçalanmış dünya indi ədəbiyyatın mövzusuna çevrilir. Bu parçaları, hissələri birləşdirməyin yeganə yolu montaj-kollaj, bir qədər sonra pastiş kimi bədii textonik vasitələrə müraciətdən ibarətdir.

Ümumiyyətlə, kvant fizikası və bədii ədəbiyyat arasındakı ortaq məqam və münasibətlərin bir məqalə çərçivəsində araşdırılması qeyri-mümkündür. Bu məqalədə biz müəyyən məqamlara toxunmaqla kifayətləndik. Nəticə olaraq, demək mümkündür ki, həm fizika tarixində kvant

nəzəriyyəsinin, ədəbiyyat tarixində modernizm və postmodernizm konsepsiyalarının yaranmasının səbəbkərı İnsan və onun dünyaya baxış formasının dəyişməsi idi. Elmin incəsənətlə, incəsənətin elmlə qarşılıqlı dialoqu hər zaman vardır və olduqca dərin prosesdir. Kvant fizikası ilə XX əsr bədii ədəbiyyatının müqayisəli tədqiqi bu prosesin mahiyyətini öyrənməyə ancaq kömək edə bilər.

**ƏDƏBİYYAT**


1. Məsimov E.Ə., Mürsəlov T.M. Atom fizikası. Ali məktəblər üçün dərslik. Bakı, "ÇAŞIOĞLU " nəşriyyatı, Bakı, 2002.
2. İbrahim B. Syed. Tasavvuf ve Kuantum fiziği . www.derindusunce.org/2010/07/20/tasavvuf-ve-kuantum-fizigi
3. Юнг К.Г. Психологические типы /Пер.с нем. – М.: «Университетская книга», ООО «Фирма издательство АСТ», 1998.
4. Kassirer Ernest. Metaforanın gücü. Tərcümə edəni Yusifli C.// Yusifli Cavanşir. Bədii mətnin sirləri. Bakı, "Mütərcim", 1998.
5. Тодоров Ц. Теории символа / Перев. с фр. Б. Нарумова. - М.: Дом интеллектуальной книги, Русское феноменологическое общество, 1998.
6. Дидро Д. Эстетика и литературная критика. М.: 1980.
7. Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası (H.Cavid, C.Məmmədquluzadə və C.Cabbarlının dramaturgiyası əsasında), fil.e.d. dissertasiya. Bakı, 2004.
8. Wellek, Rene. Edebiyat tarihinde realism kavramı. Çev.Sıddık Yüksel./ Din Bilimleri Akademik araştırma dergisi, (V) 2005.
9. Гинзбург Л.Я. Литература в поисках реальности. Статьи. Эссе. Заметки. Л.: Сов.писатель, 1987.
10. Руднев В.П. Прочь от реальности: Исследования по философии текста. II. - М.: Аграф, 2000.
11. Филиппо Маринетти. Манифест футуризма. http://futurismrus.narod.ru/firstman.htm
12. Ильин И.П. Постструктурализм. Деконструктивизм.Постмодернизм. Интрада, 1996 г.
13. Иванов.В.В. Категория времени в искусстве и культуре XX века. //Ритм, пространство и время в литературе и искусстве. Л.: «Наука», 1974.
14. Мотылева Т.Л. О времени и пространстве в современном зарубежном романе // Ритм, пространство и время в литературе и искусстве. Л.: «Наука»,1974.
15. İsmayılov F. XX əsr Qərb fəlsəfəsinin tarixi, I cild. Bakı, "Təhsil", 1999.
16. Фуко Мишель. Слова и вещи. Археология гумантарных наук. М., «Прогресс», 1977.


**QUANTUM PHYSICS AND LITERATURE**

**SUMMARY**


In this paper common moments between two quite different spheres – quantum physics and literature are analyzed. These spheres differ from each others by their theoretical and methodological basis and comparison is done by means of convergence. Models in literature and physics are compared for a first time. The difference between Newton and Quant physics are studied from literary point of view. At the end of XIX- beginning of XX century models of mind and cognition transformed radically. So, all these transformations are analyzed both from literary and physics position. The aim of this article is to compare model "observer- observed-means of observation" in physics and model "reader-author-the work" in the theory of literature.


**КВАНТОВАЯ ФИЗИКА И ХУДОЖЕСТВЕННАЯ ЛИТЕРАТУРА**

**РЕЗЮМЕ**


В статье разбираются общие, адекватные моменты в двух совершенно различных областях знаний-квантовой физике и художественной литературе. Исследование этих двух различных сфер, отличающихся друг от друга как теоретической и методологической основой, так и основным предметом, опирается на метод конвергенции. Впервые сопоставляются модели литературы и физики, различия между Ньютоновой и Квантовой физикой разбираются с точки зрения художественной литературы. Изменение моделей мышления и познания, постижения мира в конце XIX –начале XX столетия исследуется как с точки зрения физики, так и с точки зрения художественной литературы. Целью данной статьи является сопоставление модели «наблюдатель -наблюдаемый- средства наблюдения» с моделью «читатель-автор-произведение» в художественной литературе.